## Yerli özünüidarəetmə orqanları: reallıqlar və perspektivlər

Azərbaycanda hələ 1999-cu ildə formalaşan bələdiyyələr müəyyən ərazidə məskunlaşmış əhalinin sosial-infrastruktur problemlərinin həllini təmin edən müstəqil, kollegial idarəetmə forması kimi fəaliyyət göstərirlər. Əksər yerli özünüidarəetmə orqanları son illərdə ictimai fəallığı artıraraq əhalinin məhəlli xarakterli problemlərinin həllində yaxından iştirak etməyə çalışırlar. Bələdiyyələrin büdcəsinə torpaq və əmlak vergiləri üzrə daxiolmaların da həcmi ildən-ilə artır. 2011-ci ilin yekunlarına görə, ölkə bələdiyyələri üzrə icmal yerli büdcənin gəlirləri 34 milyon manat olub ki, bu da 2010-cu illə müqayisədə 18,1%, yaxud 5,2 milyon manat çoxdur. Yerli büdcə gəlirlərinin 38,3%-i yerli vergi və ödənişlərin, 47,6%-i bələdiyyə torpaqlarının icarəyə verilməsi və satışı, 10%-i dövlət büdcəsindən ayrılan dotasiya, 4,1%-i isə maliyyə yardımları, qrantlar və digər gəlirlər hesabına təmin edilib.

### Vergilər Nazirliyi bələdiyyələrə medodiki dəstək göstərir

Vergilər Nazirliyi Vergi siyasəti və strateji araşdırmalar baş idarəsinin dövlət orqanları, bələdiyyələr və vergi ödəyiciləri ilə iş şöbəsinin müdiri Cəmil Tahirovun bildirdiyinə əsasən, Azərbaycan Respublikası Prezidentinin «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 4 aprel 2002-ci il tarixli fərmanının 2-ci bəndinə əsasən, bələdiyyələrə yerli vergi və ödənişlərin düzgün hesablanmasında, tam və vaxtında ödənilməsində, habelə vergi qanunvericiliyinə dəqiq riayət edilməsində metodiki rəhbərlik Vergilər Nazirliyinə həvalə olunub. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı»nda Vergilər Nazirliyinə yerli vergi və ödənişlərin toplanması sahəsində bələdiyyələrlə əməkdaşlığı genişləndirmək tapşırılıb. Bu sahədə qarşıda duran vəzifələrin icrasının davamı olaraq vergilər nazirinin 2 sentyabr 2011-ci il tarixli əmri ilə «Yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi sahəsində bələdiyyələrə metodiki kömək göstərilməsinə dair 2011-2013-cü illər üçün Tədbirlər Planı» təsdiq edilib. Tədbirlər Planının 1.1-ci bəndində yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması və ödənilməsində mövcud problemlərin öyrənilməsi və bununla bağlı tədbirlərin görülməsi üçün bələdiyyələrlə görüşlərin keçirilməsi nəzərdə tutulub. Bununla əlaqədar 2012-ci ilin iyun ayında 9 saylı Ərazi Vergilər İdarəsinin əhatəsində olan Göyçay rayonunda fəaliyyət göstərən 22, Kürdəmir rayonunda fəaliyyət göstərən 30, Ağdaş rayonunda fəaliyyət göstərən 21, Ucar rayonunda fəaliyyət göstərən 18 və Zərdab rayonunda fəaliyyət göstərən 20 bələdiyyə üzvləri ilə treninq keçirilib. Cəmil Tahirovun sözlərinə görə, bələdiyyə üzvləri ilə keçirilən görüşlərdə onlara yerli vergi və ödənişlərin düzgün hesablanması, qanunvericiliklə müəyyən edilmiş vergi güzəştlərinin düzgün tətbiq edilməsi, bələdiyyələrin torpaq və əmlak vergilərinin yığılmasında rastlaşdıqları çətinliklərin aradan qaldırılması ilə bağlı müvafiq izahatlar verilib. Bələdiyyə torpaqlarının icarəyə verilməsi, vergiləri vaxtında ödəməmiş fiziki şəxslərlə iş aparılması və digər məsələlərlə bağlı suallar cavablandırılıb.

### Evlərin sənədləşdirilməsi zərurətdir

Biləcəri qəsəbə bələdiyyəsinin sədr müavini Nazir İsgəndərov Vergilər Nazirliyinin bələdiyyələrə metodiki dəstək sahəsində həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirir. Onun sözlərinə görə, ötən illərdə vergi əməkdaşlarının  bələdiyyə üzvləri üçün keçirdikləri treninqlərdə yerli (bələdiyyə) vergi ödəyicilərinin uçotunun aparılması; bələdiyyə büdcəsinə ödənilən fiziki şəxslərin torpaq və əmlak vergisinin vergitutma bazasının müəyyən edilməsi; yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi; bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisinin hesablanması və ödənilməsi qaydaları və digər məsələlər barədə geniş izahat verilib: «Bunun nəticəsidir ki, Biləcəri qəsəbəsi üzrə torpaq və əmlak vergilərinin qanunamüvafiq qaydada yığılması təmin olunur. Lakin ciddi problemlərdən biri vətəndaşların faktiki istifadə etdikləri əmlak üzərində mülkiyyət hüququnu təsdiq edən sənədlərinin olmamasıdır. Hazırda Biləcəyi qəsəbəsində müxtəlif vaxtlarda inşa edilmiş təxminən 10 min belə ev var. Ümumilikdə, sənədləşdirilməmiş fərdi evlərin əmlak vergisinə cəlb olunmasında müəyyən problemlər mövcuddur. Ölkə başçısının

müvafiq fərman və sərəncamları deməyə əsas verir ki, yaxın vaxtlarda bələdiyyə ərazilərində mövcud olan evlər sənədləşdiriləcək və vətəndaşlardan əmlak vergisinin toplanması çətinlik yaratmayacaq».

**Günün tələbləri ilə ayaqlaşmaq üçün...**

Ekspertlər hesab edirlər ki, bəzi bələdiyyələr öz fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmalıdırlar. «Müvəkkil» Hüquq Mərkəzinin sədri Səməd Vəkilovun sözlərinə görə, «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Azərbaycan Respublikası Qanununa əsasən, yerli vergilərə fiziki şəxslərin torpaq və əmlak vergisi; yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi və bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi daxildir. Yerli ödənişlərin tərkibinə həmçinin, küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödənişlər; bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən daxil olan ödənişlər; bələdiyyələrin ayırdığı torpaq sahələrində stasionar, səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödənişlər; mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişlər; hüquqi və fiziki şəxslərə məxsus ixtisaslaşdırılmış avtomobil dayanacaqları üçün ödənişlər daxildir. Bundan başqa, bələdiyyələr yerli rəy sorğusunun nəticəsinə əsasən, yerli əhəmiyyətli proqramların maliyyələşdirilməsi üçün hüquqi və fiziki şəxslərin sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilən könüllü birdəfəlik ödənişlər tətbiq edə bilərlər.

Bəzi bələdiyyələrin torpaq və əmlak vergisinin toplanması sahəsində müəyyən problemlərinin olduğunu vurğulayan S.Vəkilov hesab edir ki, bunun əsas səbəblərindən biri də vətəndaşlarla işin düzgün qurulmamasıdır. Onun sözlərinə görə, bəzi hallarda tədiyyə bildirişlərinin qanunamüvafiq qaydada tərtib olunmaması, habelə əmlak vergisinin düzgün hesablanmaması vətəndaşlarda müəyyən narazılıqlar doğurur: «Vergi Məcəlləsinin 198.1-ci maddəsinin tələblərinə əsasən, fiziki şəxslər əmlak vergisini  onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərindən ödəyirlər. Bu dəyər 5000 manatadək olduqda vergi tutulmur, 5000 manatdan çox olan məbləğdən isə 0,1%-lə vergi tutulur. Vergi Məcəlləsinin 200-cü maddəsinə əsasən, binalar üzrə əmlak vergisi müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikası Nazirlər Kabinetinin) müəyyən etdiyi qaydada binaların inventar dəyərinə əsasən hesablanılır. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır. Bələdiyyələr verginin ödənilməsi barədə tədiyyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər. Cari il üçün verginin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir».

S.MUSTAFAYEV